1_Layout 1 30.03.2020 12:28 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 6 (572)
31 mart
2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

ƏNƏNƏLƏR VƏ DƏYƏRLƏR İSTƏNİLƏN BÖHRANA QARŞI MİLLİ MÜBARİZƏNİN ƏSASLARIDIR

AZƏRTAC-ın Ankaradakı xüsusi müxbiri Sabir Şahtaxtının müəllifi olduğu "Ənənələr və dəyərlər istənilən böhrana qarşı milli mübarizənin əsaslarıdır" başlıqlı məqaləsinin aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.

Dünyada sürətlə yayılan koronavirus (COVID-19) infeksiyası insan cəmiyyətini cənginə alıb. Bir tərəfdən insanların sağlamlığını qorumaq, digər tərəfdən ortaya çıxan sosial-iqtisadi fəlakətlərdən qorunmaq dövlətlərin başlıca probleminə çevrilib. Koronavirusdan qorunmaq üçün kütləvi məlumatlandırma, dəqiq maarifləndirmə kampaniyalarının həyata keçirilməsinə baxmayaraq, virus sürətlə yayılır, yeni yoluxma və itkilər çoxalmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) pandemiya adlandırdığı koronavirusu sadə dillə beynəlxalq böhran adlandıra bilərik.

Azərbaycanda koronavirusun yayılmaması üçün görülən işlər göstərdi ki, istənilən böhran halından çıxmaq üçün ənənələr və dəyərlər əvəzolunmaz nemətdir. Başqa sözlə, ənənələr və dəyərlər istənilən böhrana qarşı milli mübarizənin əsaslarıdır. Fikirlərimi əsaslandırmaq üçün "Azərbaycan böhranı necə qarşıladı" sualı ətrafında faktlara müraciət etmək əhəmiyyət daşıyır. Əvvəla, qeyd etməliyəm ki, keçmiş SSRİ-nin süqutu illərində ermənilərin əsassız iddiaları ilə başlanan Dağlıq Qarabağ münaqişəsi, bunun müharibəyə çevrilməsi, 1988-ci ildə təxminən 340 min azərbaycanlının Ermənistandakı öz yurdlarından vəhşicəsinə qovulması, 20 Yanvar faciəsi, Xocalı soyqırımı və nəhayət, bir milyondan çox soydaşımızın öz yurd-yuvasından didərgin düşməsi ölkəmizin və xalqımızın yaxın tarixində mərdliklə qarşıladığı ağır faciələr və böhranlı hadisələrdir. Bu hadisələrin hər birinin arxasında düşmən faktoru dururdu. Məqsəd ölkədə xaos yaratmaq, Azərbaycan dövlətçiliyinə son qoymaq idi. Lakin böyük çətinliklərlə də olsa xalqımız bu ağır sınaqlardan mərdliklə çıxdı. Koronavirus infeksiyası yuxarıda sadaladığım böhranlı hadisələrlə müqayisədə dəf olunması o qədər də ağır olmayan prosesdir. Burada iki mühüm amil var: əhalini kütləvi yoluxmadan qorumaq, sosial-iqtisadi fəsadlara davam gətirmək. Bu yerdə Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikindən mühüm bir məqamı xatırlatmaq əhəmiyyətlidir: **"Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir"**. Bəli, yeni növ koronavirusa yoluxmalardan dünyasını dəyişənlərin ümumi statistikasına nəzər yetirsək görürük ki, gözəgörünməz düşmən sanki yaşlılara qənim kəsilib. Bu bəla ilə mübarizədə Azərbaycanın mühüm gücü sayılan milli dəyərlərə gəldikdə isə buna misal olaraq humanizm prinsiplərini göstərə bilərik. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və dövlətimizin başçısı birillik əməkhaqqı məbləğini bu Fonda ianə etdi. Böyük şirkətlərin, tanınmış şəxslərin, cəmiyyətimizin ayrı-ayrı təbəqələrini təmsil edən simaların bu yardımlaşma kampaniyasına qoşulması bir neçə gün ərzində, sözün əsl mənasında, milli birlik göstəricisinə çevrildi. Əslində, bu prosesdə ən böyük qazanc toplanan vəsaitdən çox Azərbaycan xalqının ümumi problemə qarşı mütəşəkkilliyidir. Bəli, Prezident İlham Əliyevin çağırışı ilə "böhrana qalib gələk və yaşlı nəslimizi qoruyaq" prinsipi əməli fəaliyyət istiqamətinə çevrildi.

Sözügedən infeksiyanın yayılması ilə mübarizədə Azərbaycandakı vəziyyət ürəkaçan olduğu qədər də nümunəvidir. Bu nümunəviliyin əsas meyarını dövlətin öz vətəndaşına sağlam münasibətində görə bilirik. Təşkil olunan çarter reysləri ilə vətəndaşlarımızın nizamlı qaydada xarici ölkələrdən təxliyəsi, Vətənə gətirilən insanların karantində saxlanılması kimi hallar dövlətin öz vətəndaşına göstərdiyi nümunəvi davranışdır. Bütün bunlarla bərabər, yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı da xalq tərəfindən böyük rəğbətlə qarşılandı.

Sonda mövzu ilə bağlı tanınmış ekspertlərin şərhlərinə müraciət etmək istərdim. Türkiyəli professor, tibb elmləri doktoru, tanınmış ictimai xadim İbrahim Öztək vəziyyəti belə şərh edib: "Azərbaycan koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün mübarizədə geniş imkanlara malikdir. Son illər səhiyyə sahəsində həyata keçirilən islahatlar, ən müasir cihazlar, müayinə aparatları ilə təchiz olunan laboratoriyalar, modern xəstəxanalar, o cümlədən yeni sağlamlıq mərkəzlərindəki ən müasir tibb avadanlıqları, son illər formalaşan kadr potensialı Azərbaycan xalqının sağlamlığının qorunmasına böyük töhfədir. Lakin heç kəs unutmamalıdır ki, öz məsuliyyəti ilə epidemiyanın sönməsinə kömək edə bilər". Professor bildirib ki, birincisi, gündəlik həyatda təmiz olmaq, ikincisi, virusun yayılmasının beynəlxalq təhlükə mənbəyi olduğunu dərk etmək lazımdır. Bu iki məsələyə əməl edildikdə hökumətin tədbirləri güclü nəticə verəcək. Təmasların məhdudlaşdırılması, kütləvi toplaşmaqdan imtina etmək, təmizlik qaydalarına əməl etmək və s. hər kəsin milli-mənəvi məsuliyyəti olmalıdır.

Başqa bir maraqlı ekspert rəyi tibb elmləri doktoru, professor Adil Allahverdiyev tərəfindən verilib. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarların, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) və Səhiyyə Nazirliyinin birlikdə həyata keçirdikləri tədbirlərin cəmiyyətimizin sağlamlığı üçün vacib olduğunu diqqətə çatdıran professor bildirib ki, hər bir vətəndaşımızın məsuliyyətli davranışı təkcə onun özünün yox, ailəsinin, doğmalarının, ünsiyyətdə olduğu digər insanların səhhətinin qorunması üçün vacibdir.

... Və nəhayət, koronovirusla bağlı dünyadakı vəziyyət deməyə əsas verir ki, yaranmış böhran üç halda aradan qaldırıla bilər. Birincisi, virusun mutasiyası, yəni, təbii məhvi, ikincisi, onun müalicə və peyvəndinin tapılması, üçüncüsü isə orqanizmlərin kütləvi şəkildə bu infeksiyaya uyğunlaşması. Hər halda bu vaxtadək səhiyyə mütəxəssisləri bu versiyalardan hansının yaxında olması ilə bağlı əsaslı mühakimə yürütməyiblər. Azərbaycana gəldikdə, görünən budur ki, xalqımız dövlətimizin gücünə söykənərək bu amillərin hər üçünə hazırdır.

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli həmkarlar!

Novruz bayramı münasibətilə sizi, həmçinin, hörmətli veteranlarımızı, şəhid olmuş əməkdaşlarımızın və hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edirəm.

Xalqımızın zəngin mənəvi aləmini əks etdirən Novruz bayramının dövlət səviyyəsində qeyd olunması Ulu Öndər Heydər Əliyevin çoxsaylı tarixi xidmətlərindən biri, milli-mənəvi dəyərlərimizə böyük ehtiramının bariz ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin praqmatik dövlət siyasəti sayəsində hərtərəfli inkişaf edən, əhalinin rifah halı günbəgün yüksələn ölkəmizdə bu Novruz da əmin-amanlıq şəraitində, nikbin əhval-ruhiyyə, böyük sevinc hissi ilə qarşılanır.

Əminəm ki, xalqa, Vətənə, dövlətçiliyə sədaqətli xidməti möhtərəm Prezident tərəfindən hər zaman yüksək qiymətləndirilən şəxsi heyətimiz quruculuq işlərinin və davamlı tərəqqinin mühüm şərtlərindən olan sabitliyin keşiyində bundan sonra da əzmlə dayanacaq, asayişin və təhlükəsizliyin təmin olunması, vətəndaşlarımızın qanuni mənafelərinin hüquqazidd əməllərdən müdafiəsi kimi mühüm vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

Hamınıza möhkəm cansağlığı, bahar əhval-ruhiyyəsi, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

Vilayət Eyvazov,
Azərbaycan Respublikasının
Daxili İşlər naziri, general-polkovnik

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı bayram münasibətilə hərbi hissədə olub

Martın 20-də Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Novruz bayramı münasibətilə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində olub. Hərbi hissə komandiri polkovnik Ramiq Salayev hərbi hissənin döyüş hazırlığının, təlim - tədrisinin vəziyyəti, o cümlədən, şəxsi heyətin mənəvi-psixoloji durumu, Novruz bayramı münasibətilə keçirilən bayram tədbirləri barədə komandana məruzə edib.

Daxili Qoşunların komandanı hərbi hissədə daxili xidmətin təşkili və aparılması, şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat-təchizatı ilə yaxından tanış olub, ərazidə aparılan quruculuq-abadlıq işləri ilə maraqlanıb. Novruz bayramı münasibətilə əsgər və zabitləri təbrik edən komandan, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Daxili Qoşunların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini, hərbi hissələrdə geniş abadlıq və quruculuq işlərinin aparıldığını, müxtəlif təyinatlı obyektlərin, o cümlədən, yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının tikildiyini, zabitlər, gizirlər üçün hər bir şəraitə malik yaşayış komplekslərinin istifadəyə verildiyini nəzərə çatdırıb. O, hərbi hissənin xidməti-döyüş fəaliyyətinin təşkili və digər zəruri məsələlərlə əlaqədar aidiyyəti üzrə müvafiq tapşırıqlarını verib.

Sonra Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı və hərbi hissənin komandanlığı bayram süfrəsi arxasında şəxsi heyətlə birlikdə nahar edib.

Məlumat üçün qeyd edək ki, Daxili Qoşunların digər hərbi hissələrində də şəxsi heyətin iştirakı ilə bayram tədbirlərinin keçirilməsi təmin olunub.

2_Layout 1 27.03.2020 16:16 Page 1

DAXİLİ QOŞUNLARIN KOMANDANI VETERANI 65 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

Martın 17-də Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların veteranı, istefada olan polkovnik Arif Məmmədovu 65 illik yubileyi münasibətilə təbrik edib.

Yubilyarı Daxili Qoşunların Baş İdarəsində qəbul edən general-leytenant Ş.Məmmədov onun layiqli hərbi xidmət yolu keçdiyini, qoşunların formalaşması və inkişafında öz əməyini əsirgəmədiyini vurğulayıb. Bildirilib ki, A.Məmmədov həm SSRİ dövründə, həm də müstəqillik illərində həyatını hərbi xidmətə bağlayaraq, təyin olunduğu məsul vəzifələrdə əzmkarlıq göstərib, zəngin təcrübə toplayıb, peşəkarlıq zirvəsinə ucalıb. Müsbət fərdi keyfiyyətləri ilə qoşunların hərbi qulluqçularının hörmətini qazanıb.

Qeyd olunub ki, A.Məmmədov Daxili Qoşunların maddi-texniki təminatı sahəsində çoxşaxəli və işgüzar fəaliyyəti ilə fərqlənib, komandanlığın ona göstərdiyi etimadı doğruldub. O, tabeliyində olmuş hərbi qulluqçuların döyüş və ixtisas, habelə mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsi yönündə də üzərinə düşən vəzifələri vicdanla yerinə yetirib.

Təqdirəlayiq haldır ki, A.Məmmədov hərbi xidmətdə olduğu dövrdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub. Həmçinin, o, bir sıra mükafatlara layiq görülüb.

Daxili Qoşunların komandanı A.Məmmədov kimi veteranların bilik və təcrübəsindən qoşunların şəxsi heyətinin təlim-tərbiyəsi prosesində məqsədyönlü istifadə olunmasının zəruriliyini də xüsusi qeyd edərək, onu yubileyi münasibətilə təbrik edib, dövlətçiliyimizə, hərbi anda sədaqətinə, Daxili Qoşunların veteranı adını uca tutmasına görə minnətdarlığını bildirib, hörmətli veterana möhkəm cansağlığı, ailə səadəti və işlərində uğurlar arzulayıb.

A.Məmmədov yubileyi münasibətilə onu qəbul etdiyinə və ünvanına söylədiyi xoş sözlərə, habelə veteranlara göstərdiyi qayğıya görə Daxili Qoşunların komandanına təşəkkürünü bildirib. Daxili Qoşunların həyatı ilə daim maraqlandığını nəzərə çatdıraraq, hərbi qulluqçularımızın layiqli xidmətinin veteranlar və ictimaiyyət arasında rəğbət doğurduğunu vurğulayıb.

Sonda Daxili Qoşunların komandanı yubilyara hədiyyə təqdim edib və xatirə şəkli çəkdirilib. Görüşdə Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov da iştirak edib.

Mətbuat xidməti

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 1941-1945-ci İLLƏRİN BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏNİN 75 İLLİYİ İLƏ ƏLAQƏDAR BƏYANATI

Vahid vətənpərvərlik coşqusu ilə hiyləgər və qəddar düşmən əleyhinə Vətənin müdafiəsinə qalxmış xalqlarımızın payına düşən tarixin ən ağır sınağı – Böyük Vətən Müharibəsi yetmiş beş il öncə başa çatmışdır. Bizim əcdadlarımız istər döyüş meydanlarında, istərsə də arxa cəbhədə bütün dünyaya mərdlik, qəhrəmanlıq və sarsılmazlıq nümunəsi göstərmişdir. Faşist işğalçıları ilə mübarizədə onlar müharibənin çətin hərcmərclik dövrünün bütün əzab-əziyyətini, müsibətlərini və məhrumiyyətlərini öz çiyinlərində daşımışdır.

Zaman keçdikcə Böyük Qələbədən bizi daha çox il ayırsa da, həmin hadisənin tarixi önəmi illər keçdikcə daha böyük əhəmiyyət kəsb edir. 1945-ci ilin qələbə müjdəli may ayının xatirəsi əvvəlki kimi MDB iştirakçısı olan dövlətlərin xalqlarını birləşdirir. Bu tarix bayramdan artıq bir tarixdir. O, həyat kursunu həmin müharibə ilə tutuşduran müharibədən sonrakı bütün nəsillər üçün əxlaq və mənəviyyat oriyentiridir.

Bu gün biz Vətənin azadlığı və müstəqilliyi naminə həyatını qurban vermiş insanları, ön cəbhədən uzaqda da olsa, gücü tükənənə qədər cəbhəni lazım olan hər bir şeylə təchiz edən şəxsləri xüsusi minnətdarlıq hissi ilə yad edirik.

Düşmənin darmadağın edilməsində daxili işlər orqanlarının əməkdaşları əhəmiyyətli rol oynamışdır. Onların böyük əksəriyyəti könüllü olaraq müharibəyə getmiş, qalanları isə bütün fəaliyyətini cəbhənin maraqlarına tabe edərək, Qızıl Ordunun arxa cəbhəsini möhkəmlədirdi. Onlar müəssisələrin gücləndirilmiş rejimdə işləməsini təmin edir, zavodların və elektrik stansiyalarının mühafizəsinə nəzarət edir, casusların və diversantların saxlanılmasında iştirak edir, dezertirlər, alverçilər və soyğunçularla amansız mübarizə aparırdılar. Eyni zamanda, milis əməkdaşları əvvəlki kimi ictimai asayişi qoruyur, əhəmiyyətli dərəcədə artmış cinayətkarlığa qarşı mübarizə aparırdılar.

Onların hamısı – adları bilinən və naməlum qəhrəmanlar torpaqlarına səbirsizliklə gözlənilən sülhün gəlməsinə, öz varislərinin müharibənin dəhşətlərindən xəbərsiz olmasına can atırdı.

Bu misilsiz qəhrəmanlıq xatirəsi əbədi olaraq ürəklərimizdə yaşayacaq!

Böyük Qələbənin növbəti ildönümü müharibənin bir daha təkrarlanmamalı olduğunu və müasir dövrdə bütün münaqişələrin müstəsna olaraq sülh yolu ilə həll olunmalı olduğunu bizə xatırladır. Həmçinin, o bizə istənilən təcavüzkarın ədalətli cəzaya çatacağını öyrədir.

Böyük Vətən Müharibəsinin döyüşçülərinə və əmək cəbhəsinin iştirakçılarına xüsusi minnətdarlıq kəlmələri demək istərdik.

Əziz veteranlar! Siz, gələcəyi qorumaqla, bizə sabahlara əminlik bəxş etdiniz. Bu gün sizin xeyirxahlıq, ədalət və Vətənə sevgi ideallarınız bizi ölkələrimizin rifahı naminə yaradıcı əməyə ruhlandırır.

Sizin qəhrəmanlığınızın tarixi miqyası və əhəmiyyəti zamanın hökmündən kənardır. Biz hər zaman sizinlə fəxr edəcək, sizi, qaliblər nəslini, özümüzə örnək biləcəyik!

Böyük Qələbənin varisi olmaq böyük şərəfdir. Sülh estafetini sizdən qəbul edərək, biz – MDB iştirakçısı olan dövlətlərin daxili işlər orqanlarının (polis) əməkdaşları bu gün müasir dövrə qarşı artmaqda olan çağırışlar və təhlükələr fonunda vətəndaşların təhlükəsizliyinə görə məsuliyyət yükünün bizim çiyinlərimizə düşdüyünü dərk edirik. Bu mühüm vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi bir çox halda Birlik ölkələrinin DİN-in (Polisinin) transmilli cinayətkarlığa qarşı mübarizə sahəsindəki səylərinin konsolidasiyasından asılıdır. Birgə fəaliyyətin yüksək nəticəsi isə bizim ölkələrin xalqlarının mənafeyinə tam həcmdə cavab verəcəkdir.

HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLMƏSİ

Şəxsi heyət istənilən anda, istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır

99713 saylı hərbi hissənin xidmətdə nailiyyətləri, əzmkarlığı ilə fərqlənən, 2019-cu ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə qabaqcıl bölməsi xüsusi vasitələrin tətbiqi dəstəsidir.

Dəstə komandiri vəzifəsini icra edən kapitan Haqverdi Bağırov dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətli və tam fərdi qaydada

dan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etmələrini tələb edir.

də xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin tərbiyə işləri üzrə müavini mayor Elmәddin Cəbiyevin

mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini qeyd etdi. Bildirdi ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə olmasının yoxlanılması, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Kiçik komandir heyətilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Şəxsi heyətin nəzəri biliklərini və praktiki fəaliyyətini şəxsən yoxlayan nümunəvi komandir daxili qayda-qanuna ciddi riayət olunmasını təmin edir. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığına cavabdehlik daşıyan kapitan H.Bağırov qarşıya qoyulan xüsusi tapşırıqları yerinə yetirərkən dəstəni bacarıqla idarə edir.

Tabeliyindəki hərbi qulluqçulardan təhkim olunmuş silah və xüsusi vasitələrin təyinatını, döyüş xüsusiyyətlərini dəqiq bilmələrini, onlarla

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran komandir söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən bölmə komandirlərinin adlarını çəkməyi unutmadı. Ələlxüsus, birinci xüsusi vasitələrin tətbiqi bölməsinin ötən il ərzində uğurlu xidməti barədə danışaraq, bölmə komandiri kapitan Rafət Ələsgərovun hərbi qulluqçuların fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər gördüyünü dedi.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də xidmətə yeni qəbul olunmuş hərbi qulluqçuların kollektivə uyğunlaşması da önəm verilən əsas məsələlərdəndir. Bu istiqamətfəaliyyəti müsbət xarakterizə edilir. Hərbi qulluqçuların fərdi mənəvi keyfiyyətlərinin dərindən öyrənilməsinin vacibliyini vurğulayan hərbçimiz öz işinin öhdəsindən layiqincə gəlir. O, fərdi keyfiyyətlərin müəyyən edilməsində həssas məqamların olduğunu dedi: "Hər bir insanın şəxsi xüsusiyyətlərini tanımaqla onun xidmətə münasibətini, eləcə də hazırlığını müəyyənləşdirmək mümkündür. Tələbkarlıqla yanaşı, hərbi qulluqçulara diqqət və qayğının artırılması gözlədiyimiz nəticənin əldə olunmasına təkan verir. Ümumilikdə götürsək, dəstədə xidmət edən bütün komandir heyətinin öz işini düzgün istiqamətdə qurması əldə olunmuş müsbət nəticə kimi qiymətləndirilməlidir".

Zabitlərin fikirlərindən də aydın görünür ki, bu gün hərbi hissənin öncülləri sırasında olan xüsusi vasitələrin tətbiqi dəstəsi bu adı daima qoruyub saxlamaq əzmindədir.

baş leytenant
Nigar Ağayeva

ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI ETİBARLI ƏLLƏRDƏDİR

Daxili Qoşunların hərbi hissələrində şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibbi personalın əməyi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan hərbi qulluqçuların sağlamlığının keşiyində duran tibb personalının xidməti fəaliyyətini vaxtaşırı olaraq qəzetimizin səhifələrində işıqlandırırıq.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin tibb personalı da vəzifə borcuna məsuliyyətlə yanaşır, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidmətinin rəisi tibb xidməti mayoru İlyas Dadaşov bu işdə məntəqə rəisi tibb xidməti kapitanı Cəbrayıl Talıbovun xüsusi əməyinin olduğunu bildirdi, onu nümunəvi, nizam-intizamlı hərbi qulluqçu kimi xarakterizə etdi.

Tibb xidməti kapitanı C.Talıbov 1985-ci il oktyabrın 10-da Gəncə şəhərində anadan olub. 2002-ci ildə Gəncə şəhərindəki İmadəddin Nəsimi adına 44 nömrəli tam orta məktəbi bitirib. 2004-2011-ci illərdə Azərbaycan Tibb Universitetinin "Pediatriya" fakültəsində ali təhsil alıb.

2012-ci ilin oktyabr ayından Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində 3 aylıq kurs keçib. Daha sonra xidmətini "N" saylı hərbi hissədə davam etdirib. 2013-cü ilin yanvar ayında ona ilk zabit - leytenant hərbi rütbəsi verilib. 2015-ci ilin mart ayından Daxili Qoşunların sıralarında xidmət edir. İlk olaraq, Daxili Qoşunların Ali Hərbi Məktəbinin tibb xidmətində həkim-terapevt vəzifəsinə təyin olunub. 2020-ci ilin yanvar ayından hazırkı vəzifədədir.

Tibb xidməti kapitanı C.Talıbov bildirdi ki, tibb məntəqəsinin işi "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında" Təlimata və Ali Hərbi Məktəbin rəisi tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edilir.

Məntəqə rəisi tibbi yardımın göstərilməsi və xəstələrin müalicəsi üçün məntəqənin funksional bölmələrinin lazımi əmlaklarla təmin olunduğunu da sözlərinə əlavə etdi. Vurğuladı ki, məntəqədə sanitar-gigiyenik vəziyyət də qənaətbəxşdir. Həftə ərzində bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət olunur. Zərurət olduqda bu işlər gündəlik olaraq yerinə yetirilir.

O, tabeliyində olan hərbi qulluqçuların - feldşer gizir Ceyran Malıyeva və aptek rəisi baş gizir Rəna Həsənovanın qarşıya qoyulan bütün tapşırıqları məsuliyyətlə icra etdiklərini vurğuladı.

baş leytenant
Xədicə Hacızadə

Nümunəvi xidmət

SAVADLI, BACARIQLI ƏSGƏR



Daxili Qoşunların Təlim Mərkəzində müddətli həqiqi hərbi xidmətdə olan əsgər Hüseyn Hüseynov 1998-ci il iyunun 8-də Qəbələ rayonunda dünyaya gəlib. 2015-ci ildə Qəbələ rayonu 112 saylı tam orta məktəbi bitirərək Azərbaycan Dillər Universitetinə qəbul olunub. 2019-cu ilin iyul ayından Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarındadır. Hazırda Daxili Qoşunların Təlim Mərkəzinin təminat bölüyündə operator vəzifəsindədir. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində çalışqanlığı ilə fərqlənir. Əsgər yoldaşları arasında özünə hörmət qazanıb. Komandirləri onun nizam-intizamını və icraçılıq qabiliyyətini müsbət xarakterizə edirlər.

Üzərinə düşən vəzifələrin icrasına diqqətlə yanaşan əsgər H.Hüseynov ona təhkim olunmuş cihazların, elektrik qurğularının və avadanlıqların saxlanılmasına, texniki sazlığına və fasiləsiz işləməsinə, düzgün istifadə olunmasına, vaxtlı-vaxtında qulluq və cari təmirinə, həmçinin, hədəf meydanında olan qurğuların qaydasında olmasına cavabdehdir. Avadanlıqların iş prinsipini, montaj qaydasını, quruluşunu və vəziyyətini bilir, onların düzgün istismarını təmin edir. Atışdan əvvəl və sonra cihaz, aparat və texnikalara yoxlama baxışı keçirir, nasazlıq aşkar edildikdə onun aradan qaldırılması üzrə tədbirlər görülməsi üçün rəisinə məruzə edir.

Vətənə, dövlətə xidmətin hər bir insanda qürur doğurduğunu düşünən əsgərimiz bu yolda hər cür fədakarlığa hazır olduğunu deyir və gələcək həyatını vətənpərvərlik əqidəsinə sadiq olaraq yaşayacağını bildirir.

baş leytenant Nigar Ağayeva

3_Layout 1 27.03.2020 12:29 Page 1

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

Hər il mart ayının 31-i respublikamızda Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur, erməni ideoloqlarının dövlət səviyyəsində dəstəklədikləri soyqırımı və terror siyasətinin günahsız qurbanlarının xatirəsi dərin ehtiramla yad edilir.

1918-ci ilin martında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək idi.

1918-ci ilin mart-aprel aylarında Azərbaycanın müxtəlif bölgələrində ən müxtəlif cinayətlərə rəvac vermiş erməni qəsbkarları soyqırımı və terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiqləmişlər.

Martın 30-dan aprelin 2-dək davam edən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər tərəfindən Dağlıq Qarabağda 150 azərbaycanlı kəndi tamamilə dağıdılmış, Şuşada görünməmiş qırğınlar törədilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdır. 1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olmuşdur. Lakin 70 illik sovet ideologiyasının tarixşünaslığımıza tətbiq etdiyi "vətəndaş müharibəsi", "əksinqilabi qiyam" kimi saxtalaşdırılan mart hadisələri, əslində, bolşevik-daşnak ittifaqının xalqımıza qarşı yeritdiyi növbəti soyqırımı siyasəti olmuşdur. Xalqımız bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir.

Bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət isə yalnız Ulu Öndər Heydər Əliyevin xalqın istəyi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Tarixi unutqanlığın azərbaycanlılara hansı böyük faciələr bahasına başa gəldiyini müxtəlif çıxışlarında dəfələrlə vurğulayan Ulu Öndər Heydər Əliyev, eyni zamanda, gəncləri ata-babalarımızın bu səhvlərini yenidən təkrarlamamağa çağırırdı.

Ümummilli Lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı dədə-baba yurdlarından zorla köçürülməsi, Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdı.

Bundan bir müddət sonra 1998-ci il 26 mart tarixində "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalayan Heydər Əliyev gənclərin tarixi həqiqətlərlə tanışlığına daha geniş meydan açmış, onları mübarizə ruhunda kökləmişdir. 1918-ci ilin məlum mart hadisələrinin 80-ci ildönümündə imzalanmış fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymətdir. Bu fərman gənc nəsildə milli yaddaşın qorunması baxımından, bir növ, proqram sənədidir.

2003-cü ildən Azərbaycana inamla rəhbərlik edən dövlət başçısı cənab İlham Əliyev də uydurma erməni təbliğatının beynəlxalq səviyyədə ifşa edilməsini, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasını ilk gündən Xarici İşlər Nazirliyi və diaspor qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Eyni zamanda, 2018-ci il yanvarın 18-də Prezident İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər.

Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində üzə çıxmış tarixi faktlar erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut edib.

Mətbuat xidməti

AZƏRBAYCAN BEYNƏLXALQ ALƏMDƏ NÜFUZLU ÖLKƏ KİMİ TANINIR

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına üzv olmasından 28 il ötdü. 1992-ci ilin mart ayının 2-də BMT-yə üzv qəbul olunan respublikamızın suverenliyi və ərazi bütövlüyü beynəlxalq birlik tərəfindən rəsmən tanınıb. Bununla da Azərbaycanın müstəqil dövlət statusunda dünya ölkələri ilə geniş qarşılıqlı əlaqələrinin qurulmasına başlanılıb. Həmin vaxt Azərbaycanın dövlət sərhədlərinin beynəlxalq səviyyədə tanınması ölkəmizin siyasi-diplomatik mövqelərini möhkəmləndirən mühüm addım olsa da, müstəqilliyimiz və dövlətçiliyimizin mövcudluğuna böyük təhdidləri aradan qaldırmamışdı.

Respublikamız öz müstəqilliyinin ilk illərində ağır sınaqlarla üz-üzə qalıb. Bir tərəfdən Ermənistanın hərbi təcavüzü nəticəsində ərazilərimizin işğalı, orduda hərc-mərclik və pərakəndəlik səbəbindən müdafiə qabiliyyətimizin zəifləməsi, digər tərəfdən milli birliyin olmaması, daxili siyasi çəkişmələr, hakimiyyət uğrunda qarşıdurmalar, dərin iqtisadi böhran, cəmiyyətdə sosial dayanıqsızlıq, kriminogen durumun gərginləşməsi yeni təməli qoyulmuş müstəqilliyimizin bünövrəsini dərindən sarsıdıb. Yalnız Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə tarixi qayıdışından sonra Azərbaycanın müstəqilliyi və dövlətçiliyi süqut etmək təhlükəsindən qurtuldu.

Ümummilli Liderin müəllifi olduğu azərbaycançılıq məfkurəsinə söykənən və ötən dövr ərzində uğurla inkişaf edən Azərbaycan dövlətçiliyi ildən-ilə yeni zirvələrə ucalır. Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müstəqil dövlətimiz öz siyasi-iqtisadi və hərbi qüdrətini daha da artırıb, qabaqcıl və nüfuzlu ölkələrin sırasında qərarlaşıb, tolerantlıq və sivilizasiyalararası, habelə mədəniyyətlərarası, dinlərarası dialoq məkanı kimi tanınıb, qlobal enerji layihələri və nəqliyyat dəhlizlərinin gerçəkləşməsinə sanballı töhfələr verib, kosmosa süni peyklərini çıxarıb, dünyanın idman mərkəzlərindən birinə çevrilib.

Ərazisinin 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın-köçkünün yaşadığı Azərbaycanın dövlət quruculuğunda əldə etdiyi möhtəşəm nailiyyətlər, qısa müddətdə keçdiyi inkişaf yolu dünyanı heyrətləndirir.

Azərbaycan sülhməramlı, multikultural cəmiyyət modelini qurmuş və təbliğ edən, ümumbəşəri dəyərlərə ehtiram göstərən dövlətdir. Məhz bu keyfiyyətlər ölkəmizin fərqli sivilizasiyalar, siyasi qütblər və hərbi bloklara aid dövlətlərlə uğurlu əməkdaşlıq etməsinə tutarlı zəmin yaradıb. Təsadüfi deyil ki, respublikamız İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası, UNESCO, Müstəqil Dövlətlər Birliyi, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası kimi qurumlarda etibarlı tərəfdaş olaraq öz təmsilçiliyi ilə beynəlxalq təhlükəsizliyə, dünya miqyasında mütərəqqi inkişaf proseslərinin uzlaşdırılmasına, xalqlar arasında humanitar əlaqələrin genişlənməsinə, ümumbəşəri irsin tərkibinə daxil edilən mədəni sərvətlərin qorunmasına layiqli töhfələr verir.

Respublikamıızn BMT-yə üzv dövlətlərin səs çoxluğu ilə Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsi müasir dövlətçilik tariximizə qürurla yazılan səhifədir. Bu təqdirəlayiq nailiyyət ölkəmizin dünyada baş verən proseslərdə artan rolunun beynəlxalq ictimaiyyət tərəfindən tanınmasının, ona olan hörmət və rəğbətin təzahürü kimi qiymətləndirilir.

Azərbaycan müasir müstəqillik illərində ayrı-ayı sahələr üzrə bir sıra ilklərə imza atıb. Xüsusən də respublikamızın beynəlxalq birliyin diqqət mərkəzində olan müxtəlif tədbirlərə evsahibliyi etməsi onun müsbət imicinin formalaşmasına təkan verib.

2015-ci ilin iyun ayında Azərbaycanda I Avropa Oyunları keçirilib. Avropa İdman Hərəkatı tarixində ilk dəfə gerçəkləşən bu möhtəşəm idman yarışının təşkili ölkəmizə etibar edilib. Bununla da Azərbaycan Avropa Oyunlarının bünövrəsi qoyulan ölkə kimi üzərinə düşən missiyanı yüksək səviyyədə yerinə yetirib və idman tarixinə öz möhürünü vurub.

Ölkəmizin paytaxtında keçirilən Beynəlxalq Humanitar Forum, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Sammiti kimi tədbirlər dünya gündəmindəki qlobal xarakterli məsələlərə dair geniş çərçivədə müzakirələrin aparılması, təcrübə mübadiləsinin reallaşdırılması, müxtəlif təfəkkürlü cəmiyyətlər arasında mənəvi körpü yaradılması, mədəniyyətlərin inteqrasiyası, dinlərarası həmrəyliyin, qarşılıqlı anlaşmanın təşviq olunması baxımından əhəmiyyətlidir, eləcə də bu istiqamətlərdə vacib qərarların qəbul edilməsinə öz tutarlı təsirini göstərib.

Son illər Bakıda NATO və Rusiya hərbi rəhbərlərinin mütəmadi olaraq görüşlərinin keçirilməsi də ölkəmizin geosiyasi mövqeyindən, yürütdüyü balanslı xarici siyasət kursundan, regionda aparıcı dövlət olmasından, güc mərkəzləri ilə xoşməramlı münasibətlərindən irəli gəlir.

Respublikamız xarici siyasət kursunda beynəlxalq hüququn aliliyi, bir-birinin suverenliyinə hörmət, qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini daim rəhbər tutur.

Dövlətimiz İslam dünyasında böyük hörmətə malikdir. İslam həmrəyliyinin möhkəmləndirilməsi yönündə Azərbaycanın gördüyü işlər geniş coğrafiyanı əhatə edir. Dünyada İslam mədəniyyətinin təbliği və islamofobiya təzahürlərinin doğurduğu fəsadların aradan qaldırılması yönündə ölkəmizin ardıcıl fəaliyyəti də öz bəhrəsini verir.

Türkdilli dövlətlərin əməkdaşlığı prosesində də Azərbaycan söz sahibi olan ölkələrdən biridir. Bu prosesdə mədəni irsimiz, elmi-texniki potensialımız, dövlət quruculuğu təcrübəmiz, habelə müəllifi olduğumuz sosial innovasiyalar xüsusi rol oynayır.

Azərbaycan sivilizasiyaların qovuşduğu, qədim İpək yolu üzərində yerləşən, Şərq-Qərb, Şimal-Cənub strateji dəhlizlərinin kəsişdiyi mühüm coğrafi mövqeye malik, sabit və islahatçı ölkə olaraq XXI əsrdə yeni yüksəliş hədəflərinə doğru inamla irəliləyir.

Yalçın Abbasov

Şəhidlərimiz

HƏYATINI VƏTƏNƏ FƏDA EDƏN OĞUL ELİN DUALARINDA YAŞAR

Bu Vətən, bu torpaq mənimdi deyib,
Üstündə vüqarla gəzdi şəhidlər.
Əyninə qanından bir köynək geyib,
Düşmənin yolunu kəsdi şəhidlər.

Şairə Dursun Musayevanın müəllifi olduğu "Şəhidlər" şeirindəki bu misralarda Vətən torpağı üzərində vüqarla gəzmək üçün onu düşməndən müdafiə etməyin və yağı tapdağından qurtarmağın vacibliyi fikri aşılanır. Şəhidlik məqamının mübarizliyə və fədakarlığa söykəndiyi mənası da ifadə edilməklə, bu missiyanın məhz qeyrətli oğulların üzərinə düşdüyü vurğulanır.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının döyüş yolunda Vətənin şərəfini, xalqının qeyrətini uca tutaraq şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızı həmişə ehtiramla anırıq. Onlardan biri də çavuş Nəcəfov Səttar Sədyar oğludur.

S.Nəcəfov 1971-ci il fevralın 1-də Bakı şəhərində anadan olub. Sədyar Nəcəfov və Sona Nəcəfovanın (1997-ci ildə vəfat edib - Y.A.) qurduğu ailədə bir oğul və iki qız övladı dünyaya gəlib. O, ailənin ortancıl övladı idi. Mərhumun uşaqlıq və yeniyetməlik illəri paytaxtın Qaradağ rayonunun Qobustan qəsəbəsində keçib. Burada 223 saylı orta məktəbdə təhsil alıb. Orta məktəbdə oxuduğu illərdə idmanla məşğul

olub, fiziki hazırlığına ciddi diqqət yetirib. Səttar öz ədəb-ərkanı ilə onu tanıyanların hörmətini qazanıb. Cəsarətli, yoldaşlığa sadiq, vədinə xilaf çıxmayan, heç bir çətinlikdən çəkinməyən gənc kimi tanınıb.

Uzun illər neft sənayesində öz halal zəhməti ilə çalışmış, əmək veteranı olan atasının oğluna verdiyi tərbiyə onun dünyagörüşünə, fərdi keyfiyyətlərinə öz müsbət təsirini göstərib. Atasının əmisinin və ana tərəfdən babasının 1941-1945-ci illərdə ağır müharibə sınaqlarından keçmələri də Səttar üçün bir həyat örnəyi idi.

Hərbi xidmətə çağırılanadək Səttar sürücülük kursu keçib, eləcə də qısa müddətdə inşaat dəstəsində işləyib.

O, Qazaxıstan SSR-in Aktyubinsk şəhərində (indiki Qazaxıstan Respublikasının Aqtöbe şəhəri - Y.A.), sovet ordusu sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmət zamanı bir sıra məharət dərəcələri nişanları, eləcə də idman yarışlarında qalib yerləri tutduğuna görə fəxri fərmanlarla mükafatlandırılıb.

Sonra Vətənə qayıdan S.Nəcəfovun doğmalarına qovuşması, ailə qurması, zəhmətə qatılması onun həyat yolunun yeni bir səhifəsi idi. Ancaq taleyinə dinc və acısız günlər əvəzinə müharibə sınaqları ilə üzüzə gəlmək yazılmışdı.

1992-1994-cü illər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daha da şiddətləndiyi, düşmənin hərbi təcavüzünün geniş miqyas aldığı bir dövr idi. Ön cəbhənin bütün istiqamətlərində ağır döyüşlər gedirdi. Daxili Qoşunların şəxsi heyəti o illərdə torpaqlarımızın müdafiəsində mətinliklə dayanıb. Hərbi qulluqçularımızın sıralarında xeyli sayda həlak olan, itkin düşən və yaralanan vardı.

Daxili Qoşunların Arxivindən verilən 4 noyabr 2019-cu il tarixli arayışda qeyd edilib ki, S.Nəcəfov 1993-cü ilin fevral ayında Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin tərkibində hərbi xidmətə qəbul olunub. Sovet ordusu sıralarında yiyələndiyi hərbi xidmət təcrübəsi ona üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, döyüş hazırlığının artırılmasında gərəkli olub.

1994-cü ilin fevral ayının 22-də Səttar

99713 saylı hərbi hissə komandirinin müvafiq əmri ilə xidməti-döyüş tapşırığını yerinə yetirmək üçün Füzuli rayonuna göndərilib. Həmin ərəfədə artıq ön cəbhənin bu istiqamətində uğurlu Horadiz əməliyyatı keçirilmişdi. Bunun nəticəsində Füzuli rayonunun bir sıra yaşayış məntəqələri, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad olunmuşdu.

Səttar bu döyüş zonasında torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanıb. Dəfələrlə ön mövqedə düşmənin müxtəlif çaplı silahlardan şiddətli atəşinə məruz qalsa da, döyüşçü yoldaşları ilə birgə özünü itirmədən işğalçıların layiqli cavabını verib. O, kəşfiyyata da cəlb olunaraq, düşmənin qarşıdakı atəş nöqtələri barədə gərəkli məlumatları komandirlərə çatdırıb. Onun döyüş yolu qısa bir vaxtı əhatə edir. 1994-cü il martın 21-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yaxınlığındakı ərazidə döyüş tapşırığını yerinə yetirərkən bir neçə hərbi qulluqçumuz minaların partlayışı nəticəsində ağır yaralanaraq həlak olub. Onların arasında Səttar da vardı.

23.03.1994-cü il tarixli ölüm haqqında şəhadətnamədə S.Nəcəfovun bədənin çoxsaylı qəlpə yarası, qanaxma və travmatik şokdan öldüyü qeyd edilib.

Şəhid hərbi qulluqçumuz ata yurdu olan, Hacıqabul rayonunun Navahı kəndinin qəbiristanlığında dəfn olunub. Qobustan qəsəbəsində mərhumun abidəsi ucaldılıb. Abidənin müəllifi heykəltəraş Rauf Ağayevdir. Həmçinin, Nəcəfovlar ailəsinin yaşadığı evin yerləşdiyi küçəyə şəhidin adı verilib.

223 saylı orta məktəbdə şəhid məzunlara həsr olunan xatirə guşəsi də yaradılıb.

Bu günədək bir sıra qəzetlərdə şəhid haqqında məqalələr dərc edilib, habelə ayrı-ayrı elektron mənbələrdə məlumatlar yerləşdirilib. Bundan əlavə, Nuriyyə Ağayevanın müəllifliyilə 2000-ci ildə Bakıda "Çaşıoğlu" nəşriyyatında işıq üzü görən "Qaradağ şəhidləri" kitabında da onun ömür yolundan bəhs olunur.

Elin yaddaşında, hərb tariximizdə şəhidlərin adı daim ucada dayanacaq. Onların davamçıları itirdiyimiz torpaqlarımızın işğalına son qoyacaq, bu yurdların üzərində üçrəngli bayrağımızı dalğalandıracaqlar.

Allah rəhmət eləsin!

Yalçın Abbasov

4_Layout 1 27.03.2020 12:39 Page 1

Azərbaycanda əhalinin məlumatlandırılması məqsədilə www.koronavirusinfo.az informasiya portalı istifadəyə verilib

Azərbaycan Respublikasında koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, xəstəliyin profilaktikası, əhalinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah tərəfindən məlumat portalı (www.koronavirusinfo.az) istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, portalda koronavirus (COVID-19) haqqında təsdiqlənmiş ümumi məlumatlar, dünyada mövcud vəziyyət, Azərbaycanda virusla mübarizə sahəsində həyata keçirilən tədbirlər və operativ xəbərlər öz əksini tapıb.

Azərbaycan hökumətinin əhalinin sağlamlığının mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə müəyyənləşdirdiyi qaydalar, təlimatlar və tövsiyələr portalda operativ şəkildə vətəndaşların diqqətinə çatdırılır.

Vətəndaşlar portala müraciət etməklə interaktiv qaydada onları maraqlandıran suallara cavab ala biləcəklər.

İdman

PEŞƏKAR İDMANÇI-TƏCRÜBƏLİ ZABİT

Qazandığı nailiyyətlərlə dəfələrlə ölkəmizi və xidmət etdiyi qurumu müxtəlif idman arenalarında layiqincə təmsil edən mayor Emil Hüseynov növbəti qələbəsini usta cüdoçular arasında keçirilən respublika çempionatında qazanıb. Belə ki, fevralın 27-dən 29-na kimi Bakıda keçirilən çempionatda Daxili Qoşunların İdman komandasında baş məşqçi-baş müəllim mayor Emil Hüseynov 100 kq çəki dərəcəsində 4 görüş keçirərək, 1-ci yeri qazanıb.

Qeyd edək ki, Daxili Qoşunlarda xidmət etdiyi müddət ərzində Avropa mükafatçısı, beynəlxalq yarışların qalibi, respublika çempionu adını qazanıb və dəfələrlə daxili işlər orqanları arasında keçirilən yarışlarda birinci yerə layiq görülüb. Respublika səviyyəli yarışlarda hakimliketmə səlahiyyətinə malikdir.

O, 1977-ci ildə Sumqayıt şəhərində anadan olub. 1999-cu ildən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında həqiqi hərbi xidmətə qəbul olunub. 2016-cı ildən bu günə kimi Daxili Qoşunların İdman komandasında baş məşqçi-baş müəllim vəzifəsində xidmətini davam etdirir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib, idman ustasıdır.

Övladlarını da vətənpərvər əqidəli insanlar kimi yetişdirmək istəyən hərbi qulluqçumuza tutduğu bu yolda uğurlar diləyir və gələcək idman yarışlarında daim irəlidə olmağı arzulayırıq.

baş leytenant
Nigar Ağayeva

DAXİLİ QOŞUNLARIN BİRİNCİLİYİ UĞRUNDA CÜ-DO ÜZRƏ YARIŞ KEÇİRİLİB

Martın 7-də 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda cüdo üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 25031, 16075 və 16076 saylı hərbi hissələrdən 6 komanda olmaqla 42 nəfər hərbi qulluqçu iştirak edib.

Yarışın təşkili və keçirilməsi üçün hakimlər kollegiyası aşağıdakı tərkibdə təyin edilib: baş hakim - polkovnik-leytenant Aydın Zahidov, katib - mayor Mehman Nəsibov, döşək üzrə hakim mayor Emil Hüseynov. Yarışın həkimi vəzifəsi tibb xidməti polkovnik-leytenantı Urfan Mustafayevə həvalə olunub.

Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

60 kq çəki dərəcəsində:

I yer - leytenant Cabbar Cəfərov (99713 saylı hərbi hissə);

II yer - kursant Ramil Sultanov (Ali Hərbi Məktəb);

III yer - kiçik çavuş Sərxan Xudaverdiyev (25031 saylı hərbi hissə).

66 kq çəki dərəcəsində:

I yer - kursant Rizvan Sultanov (Ali Hərbi Məktəb);

II yer - əsgər Abbas Əliyev (Ali Hərbi Məktəb);

III yer - leytenant Səid Allahverdiyev (99713 saylı hərbi hissə).

73 kq çəki dərəcəsində

I yer - əsgər Ruslan Hacıyev (Ali Hərbi Məktəb);

II yer - kursant Murad Əhmədli (Ali Hərbi Məktəb);

III yer - baş əsgər Sənan Əbdülzadə (16075 saylı hərbi hissə).

81 kq çəki dərəcəsində

I yer - əsgər Azər Qələndərli (Ali Hərbi Məktəb);

II yer - MAXE əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə);

III yer - MAXE baş çavuş Çingiz Cəfərov (99713 saylı hərbi hissə).

90 kq çəki dərəcəsində

I yer - MAXE çavuş Əli Bayramov (16075 saylı hərbi hissə);

II yer - əsgər Xəqani İbadov (16076 saylı hərbi hissə);

III yer - MAXE çavuş Ramil Muradxanov (67987 saylı hərbi hissə).

100 kq çəki dərəcəsində

I yer - gizir Coşqun İslamzadə (16075 saylı hərbi hissə);

II yer - kursant Cəfərsadiq Ağazadə (Ali Hərbi Məktəb);

III yer - baş leytenant Natiq Allahyarov (67987 saylı hərbi hissə).

+100 kq çəki dərəcəsində

I yer - MAXE çavuş Amil Muradxanov (99713 saylı hərbi hissə);

II yer - MAXE əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə).

Komanda birinciliyi üzrə Ali Hərbi Məktəb 33 xal toplayaraq, ilk pillədə qərarlaşmağı bacarıb. 16075 və 99713 saylı hərbi hissələr müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər.

Döyüş hazırlığı şöbəsi

HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

Rusiya Hindistanda "Kalaşnikov" avtomatları istehsal edəcək

"Rusiya-Hindistan birgə müəssisəsi "Kalaşnikov" avtomatlarının istehsalına başlamağa hazırdır". Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bunu Rusiya Hərbi-Texniki Əməkdaşlıq Federal Xidmətinin direktor müavini Vladimir Drozzov deyib.

O bildirib ki, hazırda Hindistan Müdafiə Nazirliyi üçün kommersiya təklifi hazırlanır.

Qeyd edək ki, Rusiya və Hindistan birgə "İndo-Russia Rifles Private Limited" adlı şirkət yaradıb. Şirkət Hindistanda qeydiyyata alınıb və müxtəlif növ silahlar istehsal edir.

Yaponiya gəmi əleyhinə hipersəs raketləri üçün döyüş başlıqları hazırlayır

Yaponiya gələcək gəmi əleyhinə hipersəs raketləri üçün döyüş başlıqları hazırlayır. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, döyüş başlıqları kiçik adalara, gəmilərə və digər hərbi nəqliyyat vasitələrinə zərbələr endirmək üçün nəzərdə tutulub.

Nümunəvi xidmət

MƏSULİYYƏTLİ ƏSGƏR, NÜMUNƏVİ XİDMƏT...

Əsgər Cavid Əliyev Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin nümunəvi xidmətilə fərqlənən, nizam-intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Öz vətənpərvərliyi ilə seçilən hərbi qulluqçu qısa müddətdə kollektivin hörmətini qazanıb. O, 1998-ci il avqustun 28-də Mingəçevir şəhərində anadan olub. 2015-ci ildə Bakı şəhəri, N.Nərimanov adına 1 saylı tam orta məktəbi bitirib. 2015-2019-cu illərdə Gürcüstan Dövlət Universitetində ali təhsil alıb. 2019-cu ilin avqust ayından 25031 saylı hərbi hissənin komendant bölüyündə xidmət edir.

Hələ uşaq yaşlarından hərbçi olmaq istədiyini bildirən Cavid Daxili Qoşunların sıralarında Vətənə xidmət etməyi özü üçün böyük fəxarət hesab edir. Əsgər C.Əliyev bildirir ki, onun hərbi xidmətə hazırlanmasında atası böyük rol oynayıb. Belə ki, o hər zaman Vətəni müdafiə etmək, onun nüfuzunun və qüdrətinin möhkəmləndirilməsi üçün çalışmaq və bu yolda hətta canını belə qurban vermək ruhunda böyüyüb. Hərbi biliklərə xüsusilə maraq göstərir. Daima öz üzərində çalışır, çünki yaxşı başa düşür ki, hərbçi yalnız daima çalışarsa, qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yerinə yetirə, eləcə də qəflətən yarana biləcək çətinlikləri dözümlülüklə aradan qaldıra bilər.

Əsgər C.Əliyev qarovul xidmətinin məsuliyyətini dərindən dərk edərək üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır. Həm komandir heyətinin, həm də əsgər yoldaşlarının etimadını qazanıb.

Əminliklə qeyd etmək olar ki, bu cür məsuliyyətli hərbi qulluqçuların nümunəvi xidmətinin nəticəsidir ki, hərbi hissələrimizin fəaliyyətində uğurlu göstəricilər günü-gündən artır.

baş leytenant Xədicə Hacızadə

BƏŞƏRİYYƏTİN ƏN DƏHŞƏTLİ BƏLASI - NARKOMANİYA

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Narkotik insanın iradəsini iflic edir.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Ümummilli Lider Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-cı il avqustun 26-da müvafiq fərman imzalayıb və bu problemin həll edilməsi üçün görülən işlər keyfiyyət baxımından yeni mərhələyə qədəm qoyub.

Bu fərman əsasında ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri müəyyən olunub, təşkilati-hüquqi, institusional və praktiki tədbirlər həyata keçirilib. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktlar qəbul edilib, ölkəmiz narkotik vasitələr və psixotrop maddələrə nəzarət sahəsində BMT-nin konvensiyalarına və bir sıra digər beynəlxalq sənədlərə qoşulmuş, həmsərhəd və digər dövlətlərlə, habelə beynəlxalq təşkilatlarla daim inkişaf edən əlaqələr qurub.

Lakin bu kimi tədbirlərin görülməsinə baxmayaraq, bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilmiş narkomanlığın dünyada geniş şəkildə yayılması respublikamızda yeniyetmə və gənclərin bu problemlə qarşılaşma riskini durmadan artırır.

Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçuların böyük bir hissəsini gənclər - əsgərlər təşkil edir. Qoşunların sıralarında xidmət edən hər bir hərbi qulluqçunun Vətən qarşısında şərəfli borcunu məsuliyyətlə yerinə yetirməsi, eləcə də bəşər övladını məhvə aparan narkomaniya haqqında kifayət qədər biliklərə yiyələnməsi üçün müvafiq tədbirlər görülür.

Belə ki, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik-leytenant Əlif Dünyamalıyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir İlqar Muradovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti mayor Nazim Yəhyayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Şamil Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Elimdar İsmayılova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16073 saylı hərbi hissənin şəxsi heyəti MAXE əsgər Ağazamin Abbasova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000